# Azərbaycanın Cənubi Qafqazda yaratdığı yeni reallıq regionun simasını dəyişəcək

***Ötən il sentyabrın 27-də başlayan və 44 gün davam edən İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda Azərbaycanın yaratdığı yeni geosiyasi reallıq formalaşıb. Vətən müharibəsindən dərhal sonra Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan beynəlxalq hüquqa əsaslanaraq, Ermənistanın 30 illik işğalına son qoyub, müharibə yolu ilə özünün ərazi bütövlüyünü və suverenliyini bərpa edib. Bu savaşda xalqımıza qarşı 1992-ci il fevralın 26-da Xocalı kimi dəhşətli soyqırımını həyata keçirmiş Ermənistan ordusunu və bəşəriyyət üçün ən təhlükəli meyillərdən olan erməni faşizmini məhv edib.***




Hələ İkinci Qarabağ müharibəsinin gedişində dövlətimizin başçısı postkonflikt dövründə Cənubi Qafqazın siyasi arxitekturasını şərh edərkən, gələcəkdə bütün istiqamətlər üzrə inteqrasiya və inkişafın, xüsusən də uzunmüddətli sülh və təhlükəsizliyin yaradılmasının vacibliyini bildirib. Bunun üçün Azərbaycan təkliflərlə çıxış edib və bu təkliflər Ermənistanın kapitulyasiyası hesab olunan 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatda əks olunub.

Vətən müharibəsi başa çatandan sonra regionda yaranan yeni geosiyasi və geoiqtisadi reallığın şərtləndirdiyi məsələlərdən biri də infrastrukturun qurulması ilə bağlıdır.

(ardı 3-cü səhifədə)



# Azərbaycanın Cənubi Qafqazda yaratdığı yeni reallıq regionun simasını dəyişəcək



**(əvvəli 1-ci səhifədə)**

Bu layihə həm Ermənistanın, həm də Azərbaycanın, eləcə də bütün region dövlətlərinin mənafeyinə xidmət edəcək, Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizinə qovuşmaqla beynəlxalq infrastruktura inteqrasiya olunacaq, böyük həcmdə yük və sərnişindaşıma imkanlarını gerçəkləşdirəcək. Ən başlıcası isə işğalçı ölkənin üzləşdiyi dərin sosial-iqtisadi böhrandan çıxmasını gerçəkləşdirəcək.

Bu gün bütün dünya müharibədən qalib çıxan Azərbaycanın bölgədə söz sahibi olduğunu, vədi ilə əməlinə daim sahib çıxdığını yaxşı başa düşür. Hazırda Qarabağ və Şərqi Zəngəzurda sürətlə aparılan genişmiqyaslı bərpa quruculuq işləri də bunu deməyə əsas verir. Beynəlxalq aləm də birmənalı şəkildə Azərbaycanın öz sərhədlərinin ədalətli şəkildə müəyyənləşdirilməsi, özgə torpağına göz dikməməsi mövqeyində olduğunu dərk edir. Ona görə də Azərbaycan sülh sazişini beynəlxalq hüquqda nəzərdə tutulan maraqları çərçivəsində imzalanmasına maraqlıdır.

Yeri gəlmişkən, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması da, əslində, bu məsələnin əvvəlcədən düşünülən strateji istiqamət olduğunu göstərir. Vətən müharibəsindən sonra qısa müddət ərzində Füzuli Beynəlxalq Hava Limanının tikilib istifadəyə verilməsi, eyni zamanda, Zəngilan və Laçında da yeni aeroportların inşasının reallaşdırılması yönündə işlərə başlanılması, beləliklə, işğaldan azad edilən bölgəmizdə müasir yol-nəqliyyat infrastrukturunun sürətli şəkildə yaradılması da bunun bariz ifadəsidir. Ümumiyyətlə, bütün bu proseslər bir tərəfdən erməni faşizminin xarabalığa çevirdiyi Qarabağ bölgəsinin sürətli bərpasını, yenidən tikilib-qurulmasını şərtləndirir, digər tərəfdən də Zəngəzur dəhlizi reallığının dönməz xarakter aldığından xəbər verir.

Bu, son vaxtlarda istər Paşinyanın və onun komandasının, istərsə də ölkənin ağır durumundan narahatlıq keçirən, bundan çıxış yolunu sülh sazişinin imzalanmasında, Zəngəzur dəhlizinin açılmasında görən müəyyən qüvvələrin açıqlamalarında özünü aydın büruzə verir. Bax, elə buna görə də əminliklə demək olar ki, hazırda hökumətin bu prosesə bağlı əməli addımlar atmaq istəyi aşkar nəzərə çarpır.

Ermənistanda müharibədən sonra revanşist qüvvələr havadarlarının təsiri ilə bu məsələyə qarşı çıxış etsələr də, Paşinyan hökuməti dəhlizin önəmini qiymətləndirir və ancaq bu vəziyyətdə ağır durumda yaşayan ölkəyə "nəfəsliyin" açılmasının mümkünlüyünü anlayır. Məsələn, bir neçə gün bundan əvvəl Ermənistan Mülki Müqavilə Partiyasından olan deputat Qagik Melkonyanın mətbuata fikirlərində bu, aydın ifadə olunur. O, Azərbaycanı nəzərdə tutaraq "Biz bunu "yol" adlandırırıq, onlar buna "dəhliz" deyirlər. Biz Qarabağa necə gedib-gəlirik? Onlar da eyni məsələni etmək imkanına sahib olmalıdırlar, onların da Azərbaycan-Naxçıvan yolu olmalıdır. Biz Qarabağa gömrük-keçid məntəqəsi olmadan, yalnız keçid məntəqələrindən keçərək gedirik, onlar da Naxçıvana sərbəst gedib-gəlməlidirlər. Bu, belə də olmalıdır, yolların açılmasına getməliyik...", – deyə o bildirib.

Böyük Britaniya-Azərbaycan parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun rəhbəri, Böyük Britaniya Parlamentinin İcmalar Palatasının üzvü Bob Bləkmən noyabrın 11-də Azərbaycan Milli Məclisində keçirilən görüşdə Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi ilə Cənubi Qafqazda yeni geosiyasi reallıq yarandığını bildirib. Bob Bləkmən ölkəmizə səfəri çərçivəsində nümayəndə heyətinin üzvləri ilə birlikdə işğaldan azad olunmuş Şuşa şəhərində və Füzuli rayonunda olduğunu və həmin ərazilərdə törədilmiş dağıntıları öz gözləri ilə gördüklərini deyib. Dostuq qrupunun rəhbəri, həmçinin Azərbaycanın həmin ərazilərdə həyata keçirdiyi bərpa və quruculuq işlərini də xüsusilə vurğulayıb.

Bir müddət bundan əvvəl isə Avropa İttifaqının "Eureporter" nüfuzlu informasiya və analitik nəşrində dərc edilən "44 günlük müharibə bölgənin geosiyasi mənzərəsini dəyişib" adlı məqalədə müəllif məşhur politoloq Kolin Stivens bildirir ki, Zəngəzur dəhlizinin yaradılması Ermənistana əhəmiyyətli üstünlüklər verir. Stivens qeyd edir ki, bölgədə nəqliyyat əlaqələrinin bərpası İrəvanın əsas iqtisadi problemlərindən birinin həllinə - Rusiyanın rəhbərlik etdiyi Avrasiya İqtisadi Birliyinin bazarları ilə quru əlaqəsinin bərpasına əlverişli imkan yaradır. Eyni zamanda, Ermənistan İranla da iqtisadi əlaqələrini daha uğurla inkişaf etdirə bilər: "Uzunmüddətli münaqişə zamanı Ermənistan ölkəni Azərbaycan vasitəsilə İranla birləşdirən dəmiryoluna çıxışını itirmişdi. Ona görə də bu dəmir yolunun bərpası İrəvanla Tehran arasında ikitərəfli münasibətlərə müsbət təsir göstərəcək".

Sonda politoloq yazır ki, bugünkü reallıq belədir: qanlı müharibə bitdi və Cənubi Qafqazda iqtisadi imkanlar yarandı. Azərbaycan üçün münaqişə keçmişdə qaldı və indiki Qarabağ iqtisadi rayonunun gələcək alternativ statusu ilə bağlı aparılan istənilən danışıqlar qətiyyən qəbuledilməzdir. Əksinə, Ermənistan "öz müqəddəratını təyinetmə" əsasında Qarabağın gələcək statusu ilə bağlı israr etməkdə davam edir və bu, təkcə Cənubi Qafqazda deyil, həm də dünyamızın bir çox yerində sabitliyi və sülhü təmin edən beynəlxalq hüququn əsas prinsipləri olan ərazi bütövlüyü və suverenliyinə qarşılıqlı hörmət olmadıqda tərəflər arasında gərginliyin davam edəcəyini göstərir.

Sözügedən nəqliyyat infrastrukturunun açılması təkcə Naxçıvanla Azərbaycanın digər bölgələri arasında deyil, bütövlükdə Xəzər və Aralıq dənizi hövzələrinin, daha geniş mənada isə Cənub-Şərqi və Mərkəzi Asiya ilə Avropanın əlaqələndirilməsinə xidmət göstərəcək.

Bir sözlə, ərazilərimizin işğaldan azad edilməsi nəticəsində yaranmış yeni siyasi reallığa uyğun olaraq, Azərbaycanın əsas hissəsini və Naxçıvan Muxtar Respublikasını birləşdirəcək Zəngəzur dəhlizi regionun tranzit-logistika potensialını genişləndirəcək. Bu potensialın reallaşdırılması yeni nəqliyyat marşrutlarının fəaliyyətə başlamasına gətirib çıxaracaq, iqtisadi gücümüzü daha da artırmaqla yanaşı, regional əməkdaşlığı və sabitliyi möhkəmləndirəcək.

Ermənistanın dəmiryollarına nəzarət edən Rusiyanın Cənubi Qafqaz Dəmiryolu Şirkəti də Zəngəzur dəhlizinə kommersiya baxımından maraqlıdır. Ermənistandan İrana 3,5 milyard ABŞ dollarına başa gələcək bahalı dəmiryol xəttinin çəkilməsində marağı olmayan rəsmi Tehran üçün də Zəngəzur dəhlizi yeni nəqliyyat imkanları açdığına görə iqtisadi baxımdan faydalıdır.

Zəngəzur dəhlizinin açılması Cənubi Qafqazdan keçən marşrutlar sisteminin fəaliyyətini daha da canlandıracaq. Dəhliz, həmçinin Azərbaycan və İran Culfası arasında dəmiryol xəttinin açılışına və İranın dəmir yollarına çıxış əldə etməyə imkan verəcək. Bununla bərabər, Zəngəzur dəhlizi təkcə dəmir yolları deyil, həm də avtomobil yolları sisteminə malik olacaq. Deməli, bu dəhlizin yaradılması həm də avtomobil əlaqəsinin açılmasına imkan yaradacaq.

Hazırda Türkiyədən yüklər Azərbaycana Gürcüstan və İran vasitəsilə tranzit yolu ilə çatdırılır. Bu marşrutun yaradılması Türkiyədən Azərbaycana və əks istiqamətdə malların birbaşa tədarükünü asanlaşdıracaq. Beləliklə, daha bir kommunikasiya xətti türk dünyası coğrafiyasında, eləcə də Asiya və Avropa arasında əlaqələrin daha sürətli və asan olmasına şərait yaradacaq.

Göründüyü kimi, artıq bölgədə yeni nəqliyyat və infrastruktur xəritəsinin formalaşmasına başlanılıb. Təsadüfi deyil ki, Azərbaycan müstəqillik əldə etdikdən indiyədək Asiya və Avropanı birləşdirən yüksək əhəmiyyətli nəqliyyat dəhlizləri yaradıb. Məhz ölkəmizin təşəbbüsü ilə reallaşdırılan Şimal-Cənub, Şərq-Qərb və Cənub-Şimal nəqliyyat dəhlizləri qitələrarası daşınmaların həyata keçirilməsini gerçəkləşdirib. Bu nəqliyyat dəhlizləri istifadəyə verildiyi vaxtdan tarixi İpək yolunun bərpasında mühüm önəm daşıyıb.

Bütün bunlar deməyə əsas verir ki, Zəngəzur dəhlizinin gerçəkləşməsi və ölkəmizin təqdim etdiyi digər tranzit nəqliyyat dəhlizləri dünyanın nəqliyyat xəritəsini yenidən formalaşdıracaq. Başqa sözlə, yeni yaranacaq nəqliyyat infrastrukturu beynəlxalq status qazanmaqla Asiya və Sakit okean hövzəsi ölkələrinin də istifadə edə biləcəyi marşruta çevriləcək.

Vətən müharibəsinin nəticəsi göstərdi ki, Azərbaycanda həyata keçirilən siyasi kurs dövlətimizi və xalqımızı qələbələrə aparan alternativsiz yoldur. Qarşıda isə xalqımızı Qarabağın və Şərqi Zəngəzurun sürətlə bərpası ilə keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıtmalarının yaşadıqları sevincli günlər, Zəngəzur dəhlizinin fəaliyyətə başlamasından fayda əldə edəcək ölkələrin Azərbaycana minnətdarlıq ünvanlayacaq zamanı gözləyir.

*Vaqif BAYRAMOV, "Xalq qəzeti"*